*Bakının bolşevik-daşnak işğalından azad edilməsinin 100 illiyi*

# Türk-islam ordusunun xilaskarlıq missiyası

Azərbaycan və Anadolu türklərini taleyin acılı-şirinli günləri birləşdirir. Bununla əlaqədar olaraq tarixin yaddaşında bir çox olaylar silinməz izlər buraxmışdır. Şanlı tarixə malik olan bu iki qardaş xalq 100 il bundan əvvəl yenidən zamanın sınağına çəkildi. Onların birlikdə təşkil etdiyi Qafqaz İslam Ordusu Azərbaycan torpaqlarında öz qanları ilə tarix yazaraq Bakını bolşevik-erməni işğalından azad etdilər. Azərbaycan və Osmanlı türklərinin qardaşlığına, dostluğuna dair tarixin qoynunda çoxsaylı olaylar, qəhrəmanlıq nümunələri yatır. Hətta taleyüklü məsələlərin həllində belə, bu xalqlar düşmüş olduqları çətin, ağır vəziyyətlərdə bir-birinə yardım əllərini uzatmışlar. Ötən əsrin əvvəllərində Balkan müharibələri, bunların ardınca Birinci Dünya savaşları zamanı peşəsindən və yaşından asılı olmayaraq Azərbaycanın bir sıra vətənpərvər insanları, ziyalıları islam-türk dünyasının mərkəzi olan Osmanlı Türkiyəsinin müdafiəsinə qalxdılar. Tezliklə iş elə gətirdi ki, müharibənin sonunda Osmanlı dövləti Azərbaycanın yenicə elan olunmuş istiqlaliyyətinin müdafiəsinə gəlməli oldu. Osmanlı dövləti özünün hərbi-siyasi və iqtisadi durumunun ağır olmasına baxmayaraq, Qafqaz müsəlmanlarının, xüsusilə də Azərbaycan türklərinin taleyinə biganə qalmadı və qala da bilməzdi.

Yenicə özünün istiqlaliyyətini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti öz ərazi bütövlüyünü, əldə etdiyi tarixi nailiyyəti qorumaq üçün lazımi orduya malik deyildi. Daşnakların 10 min nəfərdən artıq silahlı ordusuna qarşı 500-600 nəfərlik azərbaycanlı silahlı birliyi dururdu. Vəziyyət olduqca ağır idi. Paytaxt üçün nəzərdə tutulmuş Bakı şəhəri də daxil olmaqla ölkə ərazisinin böyük bir hissəsi işğal altında idi, onun suveren hüquqları hələ tam bərpa olunmamışdı.

Azərbaycan parlamenti çıxılmaz hərbi-siyasi vəziyyətdə 1918-ci il mayın 29-da Azərbaycanın tarixi İrəvan şəhərini ətraf rayonları ilə birlikdə erməni daşnak hakimiyyətinə güzəştə getməli oldu. Lakin bir şərtlə ki, daşnak qoşunları bir daha dinc azərbaycanlı kəndlərinə hücum etməyəcəklər. Fətəli xan Xoyski qəti surətdə bildirmişdi ki, əgər bu şərt pozulsa, onda həmin ərazilərin güzəşt edilməsindən söhbət gedə bilməz. Lakin ermənilər bu şərti nəinki tezliklə pozdular, bu azmış kimi, Azərbaycanın Zəngəzur, Naxçıvan, Dərələyəz, Göyçə və Qarabağ bölgələrində erməni-daşnak hərbi birləşmələri dinc müsəlman kəndlərini viran qoymağa, əhaliyə divan tutmağa başladı. Məsələn, Zəngəzurda bir dəstə mömin müsəlman öz soydaşlarının hovuza doldurulmuş qanı ilə dəstəmaz almağa məcbur edildi. Bundan imtina etdiklərinə görə daşnaklar onları yerindəcə güllələdilər.

Bakı və ətraf ərazilərdə ağalıq edən erməni-bolşevik hakimiyyətinin yerli azərbaycanlılara münasibətdə yeritdiyi azğın təqib və soyqırım siyasəti də yenicə Tiflisdən Gəncəyə köçmüş Azərbaycan Milli hökumətindən təxirəsalınmaz tədbirlər görülməsini tələb edirdi. Bu zaman Azərbaycan xalqının yeganə ümid və güvənc yeri Osmanlı Türkiyəsi idi. Tezliklə mühüm bir addım atıldı. Azərbaycanın milli qüvvələri təcili qaydada Osmanlı hökumətindən yardım almaq üçün onunla əlaqələr qurmağa çalışırdılar. Bu işdə rus əsirliyindən qaçaraq Gəncəyə gəlmiş osmanlı zabiti Hüsaməddin Tuğac bəyin rolu böyük oldu. Az sonra Gəncədəki Azərbaycan Milli Komitəsinin tapşırığı və Nəsib bəy Yusifbəylinin yaxından köməyi ilə Nağı Şeyxzamanlı, Ömər Faiq Nemanzadə, acarların nümayəndəsi Cəlal Həmşizadə və axıskalı Əbraim bəydən ibarət bir qrup nümayəndə heyəti Türkiyəyə yola düşdü. Onların məqsədi təmsil etdikləri icmaların adından osmanlı ordusunu öz vətənlərinə dəvət etmək idi.

Bu zaman Osmanlı hökumətinin hərbi naziri olan Ənvər Paşa Azərbaycan və Quzey Qafqazda Osmanlı dövlətinin himayəsində müstəqil dövlətlər qurmaq istiqamətində fəal siyasət yeritməyin tərəfdarı idi. Tezliklə bütövlükdə Qafqazı işğaldan azad etmək məqsədilə Osmanlı Sultanının əmri ilə bu bölgəyə bir ordu göndərmək barəsində qərar qəbul olundu. Ənvər Paşa özünün kiçik qardaşı albay (polkovnik) Nurunu bu orduya komandan təyin etdi. Ona lazımi təlimat və hərbi zərurətdən irəli gələrək vaxtından əvvəl Paşa (general) rütbəsi də verildi. Bu təyinatdan sonra Nuru Paşa 1918-ci il martın 25-də Mosula, mayın 25-də isə oradan Gəncəyə gəlib Qafqaz İslam Ordusunu yaratmağa başladı. Qardaşı Ənvər Paşa kimi, o da turançılıq idealları ilə yaşayırdı və türk xalqlarını vahid dövlət halında birləşdirmək arzusunda idi.

Bu ordunun missiyası Qafqazı azad etdikdən sonra işğal altında olan digər islam ölkələrinə də yardım göstərməyi nəzərdə tuturdu. Xatırladaq ki, yüksək hərbi səriştəyə malik sərrast nişançı olan Nuru Paşa hələ 1911-ci ildə Benqazi döyüşündə şəxsən 100 italyan əsgərini məhv etmişdi. Mudros müqaviləsindən sonra ingilis-fransız qüvvələri Nuru Paşanı axtarışda olan 7 yüksəkrütbəli Osmanlı zabitinin siyahısına salaraq hətta onu "milliyyətçi-residivist" adlandırmışdı. Məhəmməd Əmin Rəsulzadə yazırdı ki, "Cənubi Qafqaz nümayəndələri ilə türk nümayəndələri Batumda müzakirələr apararkən Nuru Paşa ilə bərabər tabeliyində olan bir çox zabitlər — İran və Qarabağ istiqamətindən Gəncəyə daxil oldular. O zaman müdhiş bir anarxiyaya məruz qalan, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan Gəncə, Nuru Paşanı göydən enmiş xilaskar bir mələk kimi qəbul etmişdi".

Nuru Paşa Gəncəyə gəldikdən dərhal sonra burada və ətraf bölgələrdə dağınıq halda olan milli müqavimət dəstələrini təşkil etməyə başladı. O, Gəncədə və onun ətrafında cərəyan edən hadisələrin tam təhlilini apararaq durumu doğru-düzgün dəyərləndirdi. Sonra Osmanlı dövlətinin üçüncü ordu komandanlığına tarixi əhə-

"Gəncədə milli hərbi birlik adına təşəkkül edən 600 nəfərlik bir qüvvə vardır... Azərbaycanın milli bir ordu yaratmaq imkanı mövcuddur. Əsgərliyə layiq çox insan vardır. Muğan kimi bölgələrdə 10 min tona yaxın buğda və ərzaq mövcuddur. Fəqət ordu təşkili üçün paltar, silah və cəbbəxana yoxdur. Paşa həzrətləri bu xüsusda yardım edilməsini rica edir və əlavə edir ki, əsgərin təlim və tərbiyəsi üçün buraya gələn əsgər heyəti Mosulda qaldı. Bir müddətə qədər



*Ənvər Paşa və Nuru Paşa*

gəlməyəcəkdir. Təşəkkül edəcək əsgərə komanda etmək üçün mümkün olduğu qədər müəllim zabit və kiçik zabitin ezam olunmasını rica edirəm".

1918-ci il iyunun 4-də Osmanlı hökuməti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında bağlanan müqavilənin 4-cü maddəsinə əsasən (məhz həmin bənddə Azərbaycanın Türkiyədən hərbi yardım istəməyi nəzərdə tutulurdu) Azərbaycan dövlətinin rəsmi müraciətinə uyğun olaraq üçüncü ordu komandanı Vəhib Paşa 1918-ci il iyunun 7-də belə bir əmr verdi: "Beşinci Qafqaz Firqəsinin heyətinin Qazax üzərindən Gəncəyə göndərilməsini rica edirəm. Firqənin Ağstafa stansiyasından Gəncəyə qədər qatarla nəqliyyatı üçün indidən hazırlıq buyururuq və bunun üçün lazım olan hər şeyi Qazağa göndərin. Müsəlman zabitlərindən Gəncəli İbrahimzadə Nazim Əfəndi Ağstafa stansiyası ilə Gəncə arasındakı nəqliyyatı tənzim üçün əvvəlcə Batumdan Gəncəyə göndərilmişdi. Məmurlarımız Nazim Əfəndi ilə təmas etsinlər, firqənin nəzdində ikinci Qafqaz Kolordusu telsiz stansiyanın verilməsini rica edirəm. Firqə indilik əmrinizdə və Gəncədə qalacaqdır, əfəndim".

Batumda imzalanmış müqavilə əsasında Türkiyənin 5-ci Qafqaz diviziyası Gümrü və Qazax istiqamətində iki qrup halında Qazağa gəldi. Qeyd edək ki, Beşinci Qafqaz diviziyasının komandiri qəhrəman və yenilməz sərkərdə Mürsəl bəy idi. O, ömrünün sonunadək Mürsəl Paşa Baku adını daşımışdı. Bu diviziyanın Baş qərargah rəisi isə igid zabit Rüşdü bəy idi. Belə bir maraqlı fakta da diqqət yetirmək lazımdır ki, Birinci Dünya savaşı sonu Balkanlardan ölkələrinə dönən türk zabitləri əslində tərxis olunmalı idilər. Çünki, onlar artıq yorulmuşdular və bəziləri də müxtəlif ağırlıqda yara almışdılar. Lakin Bakını xilas etmək üçün azərbaycanlılara yardım göstərilməsinin gərəkdiyini eşidən bu qorxulmaz savaşçılar sadəcə olaraq "gedəlim!" dedilər. Bu ordunun tərkibində 6.500 azərbaycanlı vuruşurdu. Onlardan bəziləri Türkiyənin ən ali mükafatı olan "Məcidiyyə" ordeni ilə təltif olunmuşdu. General-mayor Cavad bəy Şıxlinski (Əliağa Şıxlinskinin qardaşı oğlu) və olduqca cəsur general Teymur bəy Novruzov bu ordenlə təltif olunmuşdu. Nuru Paşa əsas qərarlarını general Əliağa Şıxlinski ilə birgə qəbul edirdi. Bu iki türk sərkərdəsi türk və rus hərb sənətinin inceliyinə bələd idilər.

Azərbaycan xalqına və torpağına böyük məhəbbət və sevgi bəsləyən Nuru Paşa ordu hissələrini gücləndirmək üçün Gəncədə hərbi lisey və qısamüddətli hərbi kurslar da təşkil etdi. Eyni zamanda, yenicə yaranmış Azərbaycan korpusuna azərbaycanlılardan ibarət bir neçə nizami alay, Dağıstan süvari alayı və bunlardan başqa aramsız olaraq axın-axın Azərbaycanın hər tərəfindən gələn könüllülər də daxil olurdu. Hüseyn Baykara yazırdı ki, "hərbi təlim-tərbiyənin vaxtı az olduğu üçün vuruşma zamanı çoxlu tələfat olurdu. Buna baxmayaraq, döyüş meydanından əsla geri çəkilməyərək — "Biz buraya ölməyə gəldik, dönməyə yox!" deyərək vuruşur və getdikcə döyüş havasına alışırdılar. Azərbaycan korpusunun təşkili başa çatdıqdan sonra ona polkovnik-leytenant Həbib bəy Səlimov komandanlıq edirdi". O, Xalq Cümhuriyyətinin ən cavan və ən cəsur generalı oldu. Yeganə azərbaycanlı general idi ki, Peterburqda Nikolay Baş Hərbi Akademiyasını fərqlənmə diplomu ilə bitirmişdi (Təsadüfi deyil ki, Azərbaycanın bolşeviklər tərəfindən işğalı zamanı ilk güllələnən generalı da məhz Həbib bəy Səlimov oldu).

Rüşdü bəy Qafqaz İslam Ordusu barəsində yazırdı ki, ilk yaradılışında cənub qrupunun qüvvələri belə idi: 4-cü piyada alayı (azəri alayı), 1-ci və 2-ci tabur, iki süvari bölüyü, azərbaycanlı süvarilərdən ibarət daha bir bölük, iki qrup dağ və rus səhra topundan ibarət olmuşdur. Bundan başqa, ordu alaylarına verilən Azərbaycan səhra topçu bölüyü öküz ilə daşındığı üçün səse yolundan kənara çıxa bilmirdi. Ancaq bu heyvanlar düşmənin zirehli avtomobillərini, zirehli qatarlarını qaçırmaqda və toplarını susdurmaqda çox yararlı olurdu. Toplar əsasən Türkiyə cəbhəsini tərk edərək Rusiyaya dönən rusiyalı əsgərlərdən Azərbaycan partizanları tərəfindən zorla alınmışdı.

A. Məmmədli